# Bələdiyyə seçkilərini 51 min 737 müşahidəçi izləyəcək

**Builki seçkilərdəki fəallıq, seçkiyə qatılan siyasi partiyaların, həmçinin müşahidəçilərin sayı seçkinin gərgin mübarizə şəraitndə keçəcəyindən xəbər verir. Mərkəzi Seçki Komissiyasının son məlumatında bildirilir ki, bələdiyyə seçkilərini 51 min 737 müşahidəçi izləyəcək. Bunlardan 1511 nəfəri bələdiyyə seçkiləri ilə əlaqədar respublikanın seçki keçirilən bütün dairələrində müşahidə aparılması üçün MSK-da, 50 min 226 nəfər isə dairə seçki komissiyalarında qeydiyyata alınıb. Artıq bütün seçki məntəqələrində hazırlıq işləri, demək olar ki, tam başa çatdırılıb. Bu seçkilərin də şəffaf, azad və ədalətli keçirilməsi üçün bütün imkanlardan istifadə olunub. Məlum olduğu kimi, bu il Azərbaycanda bələdiyyə institutunun yaradılmasının 20-ci ili tamam olur. Bu seçkilər yubiley ilinə layiqli töhfə olacaq.**

*Biz Azərbaycanda tam müstəqil yerli özünüidarətmə orqanları yaradırıq. Bu, həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda, ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaranmasının göstəricisidir... Yerli idarəetmə orqanları isə yerlərdə onların səlahiyyətləri çərçivəsində çox iş görə bilərlər. Bələdiyyələr dövlətin də gördüyü işlərin böyük bir hissəsini öz üzərlərinə götürəcək, dövlətin də yükünü müəyyən qədər yüngülləşdirəcəklər. Ona görə bələdiyyələrin seçilməsi, onların təşkil edilməsi, gələcək fəaliyyəti bizim cəmiyyətimiz üçün, dövlətimiz üçün və hər bir vətəndaş üçün çox vacibdir.*

***Heydər ƏLİYEV***
***Ümummilli lider***






Ölkəmizdə bələdiyyələrin yaranması, formalaşması və hüquqi bazası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə demokratik ənənələr tam formalaşmış, bütün azadlıqlar təmin olunmuş və ölkəmizin beynəlxalq aləmə inteqrasiyası yolunda qətiyyətli addımlar atılmışdır. Məhz həmin dövrdə Azərbaycanda səmərəli yerli özünüidarəetmə sisteminin formalaşması istiqamətində qətiyyətli addımlar atılmışdır. 1995-ci noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq bələdiyyələrin hüquqi statusu qanun çərçivəsində müəyyənləşdirilib.

Azərbaycanın müstəqilik tarixinə mühüm hadisə kimi daxil olan bu əhəmiyyətli gündən sonra, 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkilərinin keçirilməsinə start verildi. Bununla da ulu öndərin siyasi uzaqgörənliyi, həmçinin idarəetmədəki zəngin təcrübəsi sayəsində dövlət quruculuğu sahəsində aparılan islahatlar nəticəsində və Avropa Şurasının təklifləri nəzərə alınmaqla ölkəmizdə bələdiyyə institutu yaradıldı. Ölkəmizdə ilk dəfə keçirilən bələdiyyə seçkilərini demokratiyanın təzahürü kimi qiymətləndirən, bu sistemin fəaliyyətinə münasibət bildirən ulu öndərin müdrik kəlamlarını xatırlatmaq yerinə düşərdi: “Bələdiyyə seçkiləri Azərbaycanda ilk dəfə keçirilir. Bələdiyyələrin yaranması və onlara seçkilərin keçirilməsi haqqında 1995-ci ildə müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyada müvafiq müddəallar öz əksini tapıbdır. Buna görə də bələdiyyələrin təşkil olunması və onun üçün seçkilərin keçirilməsi öncə Azərbaycan Konstitusiyasının əsasındadır və Konstitusiyanın müddəalarının həyata keçirilməsini göstərir”.

Ötən illər ərzində yerli özünüidarəetmə orqanlarının fəaliyyəti ilə əlaqədar beynəlxalq standartlara uyğun qanunlar qəbul olunmuş, bu təsisatın getdikcə təkmilləşdirilməsi, ictimai-siyasi həyatın aparıcı institutlarından birinə çevrilməsi üçün mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Ölkəmizdə bələdiyyə institutunun inkişaf etdirilməsi məqsədi ilə mühüm qanunvericilik bazası formalaşdırılmış, bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunmuş və onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Belə ki, bələdiyyələrin fəaliyyətini tənzimləyən “Bələdiyyələrin statusu haqqında”, “Bələdiyyə üzvünün statusu haqqında”, “Bələdiyyələrin nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Bələdiyyə qulluğu haqqında”, “Bələdiyyələrin əraziləri və torpaqları haqqında”, “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında”, “Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında” qanunlar və digər əhəmiyyətli hüquqi aktlar qəbul olunmuş, Azərbaycan Respublikasının Torpaq, Su, Mülki, Seçki, Vergilər, İnzibati Xətalar məcəllələrinə bələdiyyələrlə bağlı müvafiq müddəalar daxil edilmişdir.

Qəbul olunmuş qanunlarda yerli özünüidarəetmənin çox mühüm məsələləri – yerli büdcənin formalaşdırılması, təsdiqi və icrası, yerli vergi və ödənişlərin müəyyən edilməsi, yerli sosial müdafiə, yerli iqtisadi, ekoloji proqramların işlənib hazırlanması və reallaşdırılması, mülkiyyət münasibətlərinin formalaşdırılması, ərazi və digər məsələlər öz əksini tapmışdır.

Bu illər ərzində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və bundan yetərincə yararlanmağımız nəticəsində xeyli təcrübə toplanmış və Azərbaycanda yerli özünüidarəetmə orqanları tam formalaşmışdır. Bu sahədə qəbul olunan qanunlar beynəlxalq təşkilatların istəklərinə uyğunlaşdırılmışdır. Bunlarla yanaşı, bələdiyyələrin iqtisadi imkanlarının, həmçinin cəmiyyətə və ictimai-siyasi həyata təsirinin artırılması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Ötən illər ərzində, həmçinin Milli Məclisdə mütəmadi olaraq bələdiyyələrin statusunun genişləndirilməsi, səlahiyyətlərinin artırılması ilə bağlı qanun layihələri müzakirə olunmuş və qəbul edilmişdir. Bu qanunvericilik aktları yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin daha yaxşı təşkil olunmasında və nüfuzunun artmasında müstəsna rol oynamışdır. Artıq bələdiyyə institutu tam formalaşmış, ölkənin şəhər, qəsəbə və kəndlərində vətəndaşlarımızın rifahı naminə sosial-iqtisadi inkişafın təmin olunmasında fəal iştirak edən yerli özünüidarəetmə sistemi bərqərar edilmişdir.

Hazırda ölkəmiz daha bir bələdiyyə seçkisi ərəfəsindədir. Məlum olduğu kimi, seçkilər hər bir ölkənin demokratik prinsiplərə nə dərəcədə malik olduğunun göstəricisidir. Bu baxımdan, Azərbaycanda keçirilən seçkilər həm ölkədə, həm də beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Bunu seçki prosesini izləmiş çoxsaylı beynəlxalq müşahidəçilərin rəyləri də təsdiqləyir. Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi və bir sıra digər normativ hüquqi aktlar, həmçinin Mərkəzi Seçki Komissiyasında qəbul olunan təlimatlar və qərarlar seçki prosesinin qanunlar çərçivəsində – şəffaf keçirilməsinin təmin edilməsinə yönəldilib.

Dünyada baş verən münaqişələr, qarşıdurmalar, miqrant axını, habelə müxtəlif siyasi, iqtisadi proseslər seçkilərin normal keçirilməsinə, təbii ki, öz mənfi təsirini göstərir. Azərbaycanda isə sabitlik hökm sürür, cəmiyyətimiz sabit şəkildə inkişaf edir. Bu da seçki prosesinin şəffaf və demokratik keçirilməsi üçün zəmin yaradır.

Ölkədə fəaliyyət göstərən bütün seçki komissiyalarının fəaliyyətinin Seçki Məcəlləsinin tələbinə uyğun təmin edilməsi üçün lazımi şərait yaradılıb. Seçki Məcəlləsinin qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi indiyədək keçirilən seçkilərin nəticələrində də özünü büruzə verir. Həm dairə, həm də məntəqə seçki komissiyalarının normal fəaliyyəti üçün hər cür şərait yaradılıb. Ölkəmizdə vətəndaş həmrəyliyinin mövcudluğu, demokratik prinsiplərin bərqərar olması, ictimai-siyasi sabitliyin təmin edilməsi, qazanılan nailiyyətlər seçkidən-seçkiyə seçicilərin fəallığının artması ilə müşahidə olunur.

Seçkiöncəsi MSK tərəfindən təşkil olunan seminar-müşavirələr, treninqlər və digər maarifləndirmə tədbirləri hər dəfə prezident, parlament, bələdiyyə seçkilərinin, referendumun keçirilməsini keyfiyyətcə daha üstün səviyyəyə yüksəldir.

Artıq seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb. Azərbaycanda hər dəfə seçkilərin şəffaf və demokratik prinsiplər əsasında keçirilməsində Prezident İlham Əliyevin siyasi iradəsi çox böyük rol oynayır. Dövlətimizin başçısı seçkilərdə şəffaflığın təmini ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qarşısında çox ciddi vəzifələr qoyub. Bütün bunlar dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərinin demokratik şəraitdə başa çatması üçün hüquqi baza yaradıb.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***